*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    6 may 2020-ci il    № 28 (2446)    Qiymәti 30 qəpik


# Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşü keçirilib

## Videokonfrans vasitəsilə keçirilən Zirvə görüşü koronavirusa qarşı mübarizəyə həsr olunub

*Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilib.*

AZƏRTAC xəbər verir ki, Zirvə görüşünün iştirakçılarını salamlayan Prezident İlham Əliyev dedi:

- Hörmətli Zirvə görüşünün iştirakçıları. Mən sizi səmimiyyətlə salamlayıram. Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşü qlobal pandemiyaya - koronavirus xəstəliyinə qarşı mübarizəyə həsr olunmuşdur.

Zirvə görüşünün gündəliyi üzv dövlətlərlə razılaşdırılmışdır. Etiraz yoxdursa, Zirvə görüşünün gündəliyi qəbul olunur.

Mən Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19-la mübarizəyə həsr olunan onlayn Zirvə görüşünü açıq elan edirəm.

Dövlətimizin başçısı Zirvə görüşündə giriş nitqi söylədi.

- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli BMT Baş Assambleyasının sədri.

Hörmətli beynəlxalq təşkilatların rəhbərləri.

Zati-aliləri.

Azərbaycan Qoşulmama Hərəkatının sədr ölkəsi kimi, Hərəkatın 1996-cı ildə qəbul olunmuş Metodologiyalar üzrə Kartaxena sənədindən çıxış edərək koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun yaradılması və bu formatda Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürmüşdür.

Təqdirəlayiq haldır ki, Qoşulmama Hərəkatının bütün üzv dövlətləri bu təşəbbüsü yekdilliklə dəstəkləmişdir. Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak prinsipi əsasında bütün regional qruplardan olan ölkələr təmsil olunmuşdur.

Zirvə görüşündə iştirakına görə Təmas Qrupuna daxil olan dövlətlərə təşəkkürümü bildirirəm.

Mən, eyni zamanda, Zirvə görüşünə qatılan BMT Baş Assambleyasının sədrinə, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoruna və Afrika İttifaqının Komissiyasının vitse-prezidenti öz minnətdarlığımı ifadə etmək istərdim.




BMT Baş katibi cənab Antonio Quterreşə və Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti cənab Cozef Borelə videomüraciətinə görə təşəkkürümü bildirirəm.

2019-cu il oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda XVIII Zirvə görüşü keçirildi. Zirvə görüşündə qəbul olunmuş Bakı Bəyannaməsi və Bakı Yekun Sənədində beynəlxalq hüququn prinsipləri öz əksini tapdı. Eyni zamanda, bu sənədlərdə 65 illiyi bu günlərdə qeyd edilən Bandunq prinsiplərində yer alan dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olundu. 120 üzv dövlətin yekdil dəstəyi ilə Azərbaycan üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək. Bizə göstərilən böyük inam və etimada görə bir daha minnətdarlığımı bildirirəm.

Sədrliyi öz üzərimizə götürərkən mən bəyan etdim ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaqdır.

Azərbaycan Qoşulmama Hərəkatında sədrliyinə dair əhatəli Tədbirlər Planı hazırlamış və praktiki fəaliyyətə başlamışdır. Koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişmiş və nəticədə yeni reallıqlar meydana çıxmışdır. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya vermişdir. Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə görüşü bunu göstərir.

COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmayıb. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik.

BMT Baş katibi Antonio Quterreş tərəfindən koronavirusa qarşı mübarizə məqsədilə qlobal humanitar cavab planının elan edilməsini, BMT Baş Assambleyasında müvafiq qətnamələrin qəbul olunmasını və Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk.

Pandemiyanın ilk günlərindən biz Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq. Təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət müraciətimiz əsasında mart ayında ölkəmizə səfər edərək vəziyyətlə tanış olmuşdur. Azərbaycana göstərdiyi dəstəyə və Zirvə görüşümüzdə iştirakına görə doktor Tedros Adhanom Qebreyesusa təşəkkürümü bildirirəm. Bu, Azərbaycanın təşəbbüsü ilə keçirilən 2-ci Zirvə görüşüdür. Sədri olduğumuz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının mənim təşəbbüsüm ilə aprelin 10-da COVID-19-a qarşı Zirvə görüşü keçirilmişdir. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru həmin Zirvə görüşündə də iştirak etdi və dəyərli tövsiyələrini verdi.

Qoşulmama Hərəkatının "Ümumdünya Səhiyyə Təşkilatı və onun Baş direktoruna dəstək" adlı 9 aprel tarixli bəyanatını məmnuniyyətlə qeyd etmək istərdim.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru tərəfindən martın 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir. Azərbaycan dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar könüllü maliyyə yardımı ayırdı.

Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında çevik və zəruri qabaqlayıcı tədbirlər həyata keçirmişdir. Mənim Sərəncamımla ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır.

Pandemiya dövründə bizim üçün prioritet məsələ insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsidir.

Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi tədricən dayandırılmışdır. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir.

Azərbaycanda koronavirus xəstələrinin müalicəsi üçün 20-dən artıq xəstəxana ayrılmışdır. Virusun diaqnostikası və müalicəsi üçün zəruri olan laborator testlər, bəzi tibb avadanlığı və ləvazimatlar Azərbaycana gətirilmişdir. Testlərin aparılması üçün ölkədə 23 laboratoriya fəaliyyət göstərir. İndiyə kimi ölkə üzrə 160 mindən artıq test keçirilmişdir.

Daxili tələbatı ödəmək üçün qısa müddət ərzində qoruyucu və digər tibbi ləvazimatların istehsalına başlanmışdır.

Beləliklə, həyata keçirilən bütün bu tədbirlər nəticəsində kütləvi yoluxma hallarının qarşısı alınmışdır. Son üç həftə ərzində ölkəmizdə xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasındakı dinamika müsbətdir. Pandemiya dönəmində biz bir daha həkimlərimizin peşəkarlığının şahidi olmuşuq. Azərbaycan koronavirus xəstələrinin müalicəsi sahəsində öz təcrübəsini Qoşulmama Hərəkatının digər üzv dövlətləri ilə bölüşməyə və bu sahədə əməkdaşlığa hazırdır.

(Ardı 2-ci səhifədə)

# Müasir Azərbaycan Ordusunun qurucusu

*Tarixin taleyüklü məqamlarında Vətəni ağır sınaqlardan çıxarmaq vəzifəsi böyük tarixi şəxsiyyətlərin üzərinə düşür. Bu tarixi şəxsiyyətlər bütün varlıqları ilə doğma Vətənə bağlı olurlar. Belə tarixi şəxsiyyətlərdən biri də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevdir.*

Ümummilli lider Heydər Əliyev zəngin və çoxşaxəli siyasi fəaliyyəti ilə xalqımızın yaddaşında əbədilik qazanıb. Ulu Öndər sadəcə xalqımızın deyil, eyni zamanda, bütün dünyanın şəxsiyyətinə böyük hörmət bəslədiyi siyasi lider idi. Tarixin xalqlara verdiyi şansları nadir sərkərdələr reallaşdırmağa qadir olurlar. Ulu öndər Heydər Əliyev bu mənada xalqı, dövləti qarşısında üzərinə düşən missiyanı layiqincə yerinə yetirmiş bir şəxsiyyətdir. Xalqımızın Ümummilli Lideri Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini verdi, yalnız bu gün üçün deyil, qarşıdakı onilliklər, yüzilliklər üçün dövlətimizin inkişaf strategiyasını müəyyən etdi.

Ordu hər bir müstəqil dövlətin suverenliyinin təminatçısıdır. Son illər ölkəmizdə ordu quruculuğunda böyük nailiyyətlər əldə edilib. Silahlı Qüvvələrimizin formalaşması müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Qarşısına qoyulan bütün tapşırıqları yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik Azərbaycan Silahlı Qüvvələri bu gün NATO standartlarına cavab verəcək bir səviyyədə formalaşıb. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Azərbaycan beynəlxalq aləmdə güclü iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşan modern bir ordusunun olması ilə də diqqəti cəlb edir.



Ulu öndər Heydər Əliyevin 1969-cu ildə birinci dəfə hakimiyyətə gəlişindən sonra müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi geniş vüsət aldı. Ümummilli Liderin cəsarətli addımları sayəsində Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı. O zaman bu qərarı vermək böyük cəsarət tələb edirdi. Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılması o vaxtkı SSRİ rəhbərliyini narahat etməyə bilməzdi. Həmin dövrdə ard-arda Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışsalar da, Ümummilli Liderin mahir diplomatiyası və uzaqgörən siyasəti bu cəhdlərin qarşısını aldı. Məhz bu məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxardı. C.Naxçıvanski adına Hərbi Lisey Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrildi.

1993-cü ilin yayında ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra ordu quruculuğu istiqamətində də mühüm addımlar atıldı. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəs haqqında müqavilə imzalandıqdan sonra Azərbaycanda Milli Ordunun güclənməsi daha da sürətləndirildi, həyata keçirilən siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına, döyüş ruhunun yüksəldilməsinə diqqət gücləndirildi.

Dahi sərkərdə cəbhə xəttində atəşkəsə nail olduqdan sonra ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara başladı. Qısa müddətdə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı, orduya çağırış, fərarilik halları ilə bağlı bütün problemlər öz həllini tapdı. Dövlətçiliyi və Hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldildi. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri qanunlar qəbul edildi, Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı.

2001-ci il iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 83-cü ildönümünə həsr edilmiş təntənəli mərasimdə nitq söyləyən Ümummilli Lider demişdir: "Ordu yaratmaq, qurmaq asan bir iş deyildir. Əgər nəzərə alsaq ki, sovet hakimiyyəti dövründə bizdə bunun əsası olmayıbdır, bu, asan iş deyildir. Ona görə də ordunun, Silahlı Qüvvələrin yaranmasına, ordu quruculuğuna dövlətin, bütün hakimiyyət orqanlarının xüsusi qayğısı olmalıdır. Azərbaycan Prezidenti, Ali Baş Komandan bu qayğını göstərir və bundan sonra da göstərəcəkdir. Ancaq bu təkcə məndən asılı deyildir. Hər bir hakimiyyət orqanının kiçik, ya böyük hissəsi, hər bir vətəndaş gərək hər bir sahədə ordu quruculuğuna öz töhfəsini, öz payını versin. Çünki ordu xalqındır. Ordu, Silahlı Qüvvələr xalqın təhlükəsizliyini və müstəqil dövlətin suverenliyini qorumaq üçün lazımdır".

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzalamışdır. Prezidentin 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər - Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdı...

Silahlı Qüvvələrin döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması müasir hərbi texnika ilə yanaşı, bu texnikanı idarə edə biləcək savadlı zabit korpusundan da əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan Azərbaycanda beynəlxalq standartlara cavab verən hərbi təhsil sisteminin formalaşdırılması ordu quruculuğunda önəmli bir addım oldu. Belə ki, əbədiyaşar Ali Baş Komandan milli ordu quruculuğu, Silahlı Qüvvələrin modernləşməsi prosesində beynəlxalq təcrübəyə istinad etməklə güclü, qüdrətli, məğlubedilməz Azərbaycan Silahlı Qüvvələrini formalaşdırdı. Kursant və zabit heyətinin dünyanın ən qabaqcıl hərbi təhsil müəssisələrində hərb sənətinin sirlərinə yiyələnməsi ordumuzun peşəkarlıq səviyyəsinin yüksəlməsinə yol açdı.

Bu gün tam əminliklə deyə bilərik ki, regionun ən qüdrətli ordusu - Azərbaycan Silahlı Qüvvələri ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal altındakı torpaqlarımızın düşmən tapdağından azad edilməsi üçün Prezident, Ali Baş Komandan İlham Əliyevin əmrini uğurla yerinə yetirməyə hazır və qadirdir.

**"Azərbaycan Ordusu"**

**(Əvvəli 1-ci səhifədə)**

# Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşü keçirilib

Əhali arasında virusa yoluxma sürətinin aşağı düşməsini, xəstələrin sağalma dinamikasını nəzərə alaraq, xüsusi karantin rejimindən çıxış planı mərhələli şəkildə həyata keçirilir. Xüsusi karantin rejimi mayın 31-nə qədər uzadılsa da, tətbiq edilən bir sıra məhdudiyyətlər aprelin 27-si və mayın 4-dən etibarən yumşaldılıb.

Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək və makroiqtisadi və maliyyə sabitliyini təmin etmək üçün 3.5 milyard manatdan artıq və ya 2 milyard dollardan çox sosial-iqtisadi dəstək paketi qəbul olunmuşdur.

Ümumilikdə dövlət sektoru üzrə 900 mindən çox işçinin əməkhaqqı tam həcmdə saxlanılmaqla, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa yaşayış minimumuna uyğun olaraq iki ay ərzində vəsait ödənilir.

İşsiz şəxslərin sosial müdafiəsi üçün ilin sonuna qədər 90 min ödənişli ictimai iş yerinin yaradılması nəzərdə tutulur.

Banklar tərəfindən sahibkarlara yeni verilən kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcəkdir.

Pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergiödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövr üçün vergi güzəştləri və vergi tətilləri ediləcəkdir.

Bütün bunlar atılan addımların yalnız bir hissəsidir. Ümumiyyətlə, dövlətin həyata keçirdiyi tədbirlərə vətəndaşlarımız tərəfindən çox yüksək qiymət verilir.

Hörmətli həmkarlar, pandemiya şəraitində ölkələrimiz arasında ticarətin açıq saxlanılması və beynəlxalq yükdaşımaların fasiləsiz olaraq həyata keçirilməsi vacibdir. Azərbaycan artıq Avrasiyada önəmli nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilmişdir. Onlarla ölkəni birləşdirən Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizlərinin yaradılmasında böyük rol oynamışdır. Pandemiya dövründə də Azərbaycan etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq ərazisi vasitəsilə maneəsiz tranzit daşımalarını təmin edir.

Eyni zamanda, tibb mütəxəssislərinin təcrübə mübadiləsi, virusa qarşı mübarizədə əldə edilmiş təcrübənin, məlumatların, elmi biliklərin bölüşülməsi, ehtiyacı olan ölkələrə yardım göstərilməsi mühüm əhəmiyyət kəsb edir.

Zirvə görüşünün təklif olunan Bəyannaməsində qeyd edildiyi kimi, Qoşulmama Hərəkatının yaradılacaq İşçi Qrupu üzv ölkələrin pandemiya ilə bağlı humanitar və tibbi ehtiyaclarını vahid məlumat bazasına daxil edəcəkdir. Həmin məlumatlar mümkün yardımların göstərilməsi üçün donor ölkələrə, beynəlxalq humanitar təşkilatlara təqdim ediləcəkdir.

Pandemiyaya qarşı mübarizədə ən çox yardıma ehtiyacı olan Qoşulmama Hərəkatı üzv dövlətlərini dəstəkləmək üçün Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına əlavə olaraq 5 milyon dollar ianə ayırır. Bu vəsait bizimlə razılaşdırılmaqla ən çox yardıma ehtiyacı olan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan üzv ölkələr üçün nəzərdə tutulur.

120 ölkəni özündə birləşdirən Qoşulmama Hərəkatı BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisatdır. Azərbaycanın sədrliyi dövründə birgə səylərimizlə Qoşulmama Hərəkatının beynəlxalq nüfuzunu, beynəlxalq aləmdə oynadığı rolunu artırmaq əzmindəyik. Ölkələr arasında dostluq, həmrəylik və qarşılıqlı dəstək xüsusi rol oynayır.

Razılığınız olarsa, qlobal həmrəyliyin nümunəsi kimi Qoşulmama Hərəkatının üzv ölkələri olaraq BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış edə bilərik.

Hamımız üçün bu çətin dövrdə mən bir daha bütün dövlətləri dostluğa, qarşılıqlı dəstəyə və həmrəyliyə dəvət edirəm.

Diqqətinizə görə minnətdaram.

# Ön xətt bölmələri yoxlanılıb

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ön xətdə yerləşən hərbi hissələrdə olublar.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qoşunların təmas xəttindəki əməliyyat şəraiti barədə məruzələri dinlədikdən sonra general-polkovnik Məhərrəm Əliyev və general-polkovnik Zakir Həsənov üzbəüz yerləşən düşmən mövqelərini müşahidə ediblər. Müdafiə naziri bölmələrin daim döyüşə hazır vəziyyətdə olması barədə müvafiq tapşırıqlar verib.

Ön xətdə olan Müdafiə naziri cəbhənin Talış kəndi istiqamətindəki döyüş mövqelərində xidmət edən hərbi qulluqçularla görüşüb, onların xidmət şəraiti ilə maraqlanıb. Şəxsi heyətlə görüş zamanı Ali Baş Komandanın Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi və hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı verdiyi tapşırıqların icrası istiqamətində fəaliyyətlərin davam etməsindən danışan general-polkovnik Məhərrəm Əliyev bu məsələlərin ölkə rəhbərliyinin daim diqqət mərkəzində olduğunu da xüsusi vurğulayıb.

Sonra tank bölmələrində olan general-polkovnik Məhərrəm Əliyev və general-polkovnik Zakir Həsənov tank ekipajları ilə görüşərək onların döyüş hazırlığını yoxlayıb və xidmətləri ilə maraqlanıblar.

Sonda hərbi qulluqçularla birgə nahar süfrəsi təşkil edilib.

# Müdafiə naziri döyüş fəaliyyətlərinin aparılmasına hazır olmağı tapşırıb

*Mayın 2-də Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunun rəhbər heyəti ilə xidməti müşavirə keçirib.*



Əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri çıxışında xüsusi vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən vaxtında və effektiv verilən göstərişlər sayəsində koronavirus infeksiyasının ölkəmizin ərazisində geniş yayılmasının qarşısı alınıb. O, bildirib ki, həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində Azərbaycan Ordusunun şəxsi heyəti və mülki personalı arasında bu infeksiyaya yoluxma halları qeydə alınmayıb.

Müdafiə naziri ordu rəhbərliyinin diqqətini son zamanlar düşmənin təxribat hərəkətlərinin aktivləşməsi ilə döyüş fəaliyyətlərinin yenidən başlanması ehtimalının kəskin artmasına yönəldib. Nazir tərəfindən ön xətdə və düşmən müdafiəsinin dərinliyində kəşfiyyatın bütün növlərinin gücləndirilməsi, döyüşə hazırolma planlarının dəqiqləşdirilməsi, qoşunların hərtərəfli təminatı, həmçinin intensiv dərslərin, məşqlərin və təlimlərin keçirilməsinə dair konkret tapşırıqlar verilib.

Müdafiə naziri bütün səviyyələrdən olan komandirlərdən düşmənin müxtəlif təxribatlarının qarşısının alınması, cəbhənin bütün istiqamətlərində onun aktivləşməsinə qətiyyətlə yol verilməməsi və döyüş fəaliyyətlərinin aparılmasına hazır olmalarını tələb edib.

Müdafiə naziri faşizm üzərində qələbənin 75-ci ildönümü və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş bayram tədbirlərinin yüksək səviyyədə keçirilməsini tapşırıb.

Müşavirənin sonunda Müdafiə naziri silah, hərbi və xüsusi texnikanın yay mövsümündə istismar rejiminə, şəxsi heyətin yay geyim formasına keçirilməsi, eləcə də hərbi qulluqçuların sağlamlığına tibbi nəzarətin gücləndirilməsi və onların təhlükəsizliyinin təmin olunması barədə müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Ermənistan mətbuatında Azərbaycan tərəfinin minaatanlardan istifadə etməklə atəşkəs rejimini pozması barədə yayılan xəbər yalandır

Ermənistan kütləvi informasiya vasitələrində guya Azərbaycan tərəfinin minaatanlardan istifadə etməklə atəşkəs rejimini pozması barədə yayılan xəbər yalandır, həqiqəti əks etdirmir.

Bunu AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Belə ki, Ermənistan tərəfinin iddiasının əksinə olaraq, bu gün gündüz saatlarında düşmən ordusunun bölmələri atəşkəs rejimini kobud şəkildə pozaraq mövqelərimizi atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri 82 millimetrlik minaatanlardan istifadə etməklə cavab atəşi ilə düşmənin atəş nöqtələrini susdurub.

# Böyük Vətən müharibəsinin iştirakçıları Azərbaycan Respublikasının yubiley medalı ilə təltif ediləcəklər

*Prezident İlham Əliyev mayın 1-də Böyük Vətən müharibəsi iştirakçılarının "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 1941-1945-ci illər Böyük Vətən müharibəsi cəbhələrində döyüş əməliyyatlarında iştirak etmiş, faşist işğalçılarına qarşı gizli mübarizə aparmış, arxa cəbhələrdə çalışmış, həmin dövrdə SSRİ Silahlı Qüvvələrində xidmət etmiş şəxslər "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif ediləcəklər.

Azərbaycan Respublikasının Nazirlər Kabineti "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalının və onun vəsiqəsinin hazırlanması ilə əlaqədar tədbirlər görəcək. Həmçinin yubiley medalı ilə təltif olunacaq şəxslərin siyahısının tərtib edilməsini və medalların təqdim olunmasını təmin edəcək.

# Aİ-nin xüsusi nümayəndəsi Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesinin cari vəziyyəti barədə məlumatlandırılıb

Xarici İşlər naziri Elmar Məmmədyarovun Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Toivo Klaar ilə telefon söhbəti olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tərəflər qlobal pandemiya ilə mübarizə çərçivəsində bölgədəki son vəziyyət, eləcə də Avropa İttifaqı ölkələrinin hazırkı durumu ətrafında ümumi fikir mübadiləsi aparıb, bu xüsusda beynəlxalq əməkdaşlıq və həmrəyliyin əhəmiyyətini qeyd ediblər.

Telefon söhbəti zamanı tərəflər xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin cari vəziyyətini müzakirə ediblər.

Nazir E.Məmmədyarov Aİ-nin xüsusi nümayəndəsinə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrləri və fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin vasitəçiliyi və iştirakı ilə videokonfrans şəklində baş tutmuş görüşü barədə məlumat verib, danışıqların formatının və gündəliyinin dəyişilməz qaldığını qeyd edib. O, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq həll edilməsinin, o cümlədən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasının, məcburi köçkünlərin öz evlərinə və mülklərinə geri qayıtmasının vacibliyini vurğulayıb.

# Cəbhə bölgəsindəki hərbi hissələrin silah və hərbi texnikasının döyüş qabiliyyəti yoxlanılıb

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhə bölgəsindəki hərbi hissələrin silah və hərbi texnikasının döyüş qabiliyyətini yoxlayıblar.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi hissələrdə şəxsi heyət üçün yaradılan şəraitlə tanışlıqdan sonra hərbi hissələrin sərəncamında olan silah və hərbi texnikanın müxtəlif növlərinə baxış keçirilib.

Hərbi hissələrin birinin ərazisində inşa olunan trenajor binasına gələn general-polkovnik Məhərrəm Əliyev və general-polkovnik Zakir Həsənov ekipajların tank və piyada döyüş maşınlarının təlim-məşq qurğularında atış və sürücülük məşqlərini izləyiblər.

Müdafiə nazirinin əmri ilə döyüş texnikası təlim-həyəcan siqnalı ilə əraziyə çıxarılıb və tapşırıq uğurla icra olunub.

# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin onlayn iclası keçirilib

Mayın 4-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin onlayn iclası keçirilib.

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komitə sədri Ziyafət Əsgərov gündəliyə üçüncü oxunuşda iki qanun layihəsinin daxil edildiyini diqqətə çatdırıb.

Birinci məsələ - "Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında" Azərbaycan Respublikasının qanun layihəsi ilə bağlı komitə sədri diqqətə çatdırıb ki, sənədin ikinci oxunuşu zamanı verilən təkliflər nəzərə alınıb və redaktə xarakterli bəzi düzəlişlər edilib.

Sonra Ziyafət Əsgərov vurğulayıb ki, ölkədə elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılmasını təkmilləşdirmək və elmi tədqiqatların səviyyəsini yüksəltmək məqsədilə Azərbaycan Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə "Elmi dərəcələr verilməsi qaydası haqqında" və "Elmi adlar verilməsi qaydası haqqında" əsasnamələr təsdiq edilib. Gündəlikdəki ikinci məsələ - "Hərbi qulluqçuların statusu haqqında", "İnzibati icraat haqqında", "Təhsil haqqında", "Elm haqqında" qanunlarda, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə və "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə" qanun layihəsi həmin Fərmanda nəzərdə tutulmuş məsələlərlə əlaqədardır.

İclasda çıxış edən deputatlar Hikmət Məmmədov və Aydın Mirzəzadə təqdim olunan məsələlər barədə fikirlərini bildiriblər.

Onlayn müzakirələrdə komitə üzvləri Aqil Abbas, Əminə Ağazadə, Kamal Cəfərov, Elşad Mirbəşir oğlu, Oqtay Əsədov, Nurlan Həsənov, Erkin Qədirli, Elman Məmmədov, Arzu Nağıyev, Bəxtiyar Sadıqov, Nizami Səfərov iştirak ediblər.

İclasın sonunda qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# “Qoşulmama Hərəkatı COVID-19-la mübarizə üçün birləşir”

Çinin rəsmi xəbər agentliyi Sinxua Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü haqqında xəbər yayıb.

AZƏRTAC xəbər verir ki, materialda Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin açılış nitqinə geniş yer verilib, dövlətimizin başçısının Azərbaycanın pandemiya ilə mübarizədə gördüyü işlər barədə fikirləri, o cümlədən ölkəmizdə koronavirusun yayılmasının qarşısının alınması üçün vaxtında çevik və zəruri qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, bütün kütləvi tədbirlərin təxirə salınması, təhsil müəssisələrində tədris prosesinin dayandırılması, xüsusi karantin rejiminin tətbiq edilməsi barədə fikirləri əks olunub.

Prezident İlham Əliyevin Azərbaycanın bu istiqamətdə təcrübəsini Qoşulmama Hərəkatının üzv dövlətləri ilə bölüşməyə hazır olması fikrinə toxunan Sinxua yazır ki, Azərbaycan ən çox yardıma ehtiyacı olan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan üzv ölkələr üçün koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar könüllü maliyyə yardımı ayırıb.

Qeyd olunub ki, videokonfransda BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bande, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusa, Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamat çıxış edib, BMT-nin Baş katibi Antonio Quterreşin videomüraciəti dinlənilib.

# Naxçıvan Qarnizonu Qoşunlarından



Naxçıvan Qarnizonu Qoşunlarında mühəndis ixtisaslı manqa komandirləri ilə ixtisas toplantısı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşğələlər zamanı mühəndis təminatı tapşırıqlarını yerinə yetirən şəxsi heyətin fərdi və kollektiv fəaliyyətdə bacarıqları təkmilləşdirilib.

Mövcud mühəndis texnikaları vasitəsi ilə təbii və süni maneələrdən motoatıcı və tank bölmələrinin keçidi təmin edilib, şəxsi heyət partlayış işində praktiki məşq etdirilib.

* * *

Naxçıvan Qarnizonu Qoşunlarında hərbi hissə komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələsi keçirilib.

Komandir hazırlığı məşğələsi komandirlərin və qərargah zabitlərinin yaranmış mürəkkəb şəraitdə döyüş tapşırığını vaxtında və dəqiq yerinə yetirmək bacarıqlarının təkmilləşdirilməsi məqsədi ilə keçirilib.

Səhra şəraitində təşkil edilmiş təlim yerlərində müxtəlif fənlər üzrə keçirilən dərslərdə döyüş texnikalarının heyətlərindən normativlərin qəbulu, hərbi hissədə texnikaların yoxlanması, səhra şəraitində avtomobil və döyüş maşınlarının yanacaqla təminatı qaydaları göstərilib.

Məşğələnin sonunda atəş bacarıqları yoxlanan zabitlər müxtəlif atıcı silahlardan praktiki atışlar yerinə yetiriblər.

* * *

Naxçıvan Qarnizonu Qoşunlarında bütün növ silah və texnikanın istismarının yay mövsümünə keçidi ilə əlaqədar göstərici məşğələ keçirilib.

Əvvəlcə Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayevin bütün növ silah və texnikanın istismarının yay mövsümünə keçidi ilə əlaqədar əmri və göstərici məşğələnin planı şəxsi heyətə çatdırılıb.



Müxtəlif təlim yerlərində avtomobil texnikalarının, raket-artilleriya silahlarının, hava hücumundan müdafiə vasitələrinin, atıcı silahların, döyüş sursatlarının və zirehli tank texnikalarının yay mövsümünə keçidi zamanı görülən işlər, park xidmətinin, yanğından mühafizənin, tərbiyəvi işin və ilk tibbi yardımın təşkili, mühəndis, kimya, ərzaq və rabitə vasitələrinə texniki xidmətin göstərilməsi praktiki olaraq nümayiş etdirilib.

Mərkəzləşdirilmiş qaydada yanacaq-sürtgü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilən Naxçıvan Qarnizonu Qoşunlarında yay mövsümünə keçid zamanı hərbi texnikalara texniki xidmət 1 və 2 həcmində qulluq göstərilir. Bu zaman texnikaların yanacaq-sürtgü materialları və filtrləri dəyişdirilir, elektrik və hidravlik sistemləri, hissə və mexanizmləri planlı şəkildə yoxlanılır.

Zirehli tank texnikalarının hərəkət hissələrinə, döyüş və güc bölmələrinə xüsusi qulluq göstərilir, bütün hərəkət hissələri yağlanır, tırtıllar tarımlanır, mühərriklərə yağ əlavə olunur, ehtiyac olanların yağı dəyişdirilir.

Bütün fəaliyyətlər başa çatdıqdan sonra silah və hərbi texnikanın hər bir nümunəsinin təhlili və nəticələrin qiymətləndirilməsi aparılacaq.

# HDQ-nin taktiki təlimi başa çatıb



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına əsasən, Hərbi Dəniz Qüvvələrində (HDQ) keçirilən taktiki təlim başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Xəzər dənizinin əməliyyat zonasında enerji infrastrukturunun mühafizəsi, gəmi taktiki qruplarının qarşılıqlı fəaliyyətdə döyüş əməliyyatlarının planlaşdırılması və aparılması, həmçinin komandirlər, qərargahlar və şəxsi heyətin bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə yüksək peşəkarlıq nümayiş etdirilib.

Üç mərhələdən ibarət təlimin birinci mərhələsində verilmiş siqnala əsasən, birləşmə və hərbi hissələrin xəbərdar edilməsi, sualtı diversiya əleyhinə qüvvə və vasitələrin döyüşə hazırolma vəziyyətinə gətirilməsi tədbirləri icra edilib. İkinci mərhələdə siqnala əsasən, sualtı diversiya əleyhinə qüvvələrin əməliyyat rayonlarında açılması və sualtı diversiya əleyhinə müdafiə tapşırıqları, həmçinin neft-qaz infrastrukturunun mühafizəsi əməliyyatları yerinə yetirilib. Üçüncü mərhələdə döyüş atışları icra olunduqdan sonra gəmilər dislokasiya məntəqələrinə qayıdıb.

Təlimə 20-dən artıq gəmi və kater, 2 helikopter, o cümlədən 700 nəfərədək şəxsi heyət cəlb olunub.



*Təlim*

# "Atəş" komandasını gözləyirik!



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin döyüş hazırlığı ilə yaxından tanış olduq. Hərbi hissənin zabiti baş leytenant Şahin Orucovun nəzarəti altında keçirilən dərsin gedişatı ilə maraqlandıq. Söhbət zamanı Şahin orduda aparılan islahatlardan danışdı. O bildirdi ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ordu sahəsində böyük islahatların aparılması ilə yanaşı, ordumuz yeni və müasir silah növləri ilə təchiz edilir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Anar Ələsgərov müharibədə artilleriyanın rolunun böyük olduğunu dedi. - Artilleriya qüvvələri - toplar cəbhə xəttindən bir qədər arxada yerləşdirilir. Hərbi əməliyyatların artilleriya dəstəyi ilə uğurla başa çatdırılması qələbəyə hesablanır. Bölməmizin şəxsi heyətinin həm mənəvi-psixoloji durumu, həm də döyüş hazırlığı yüksək səviyyədədir. Təcrübəli zabitlərimiz əsgərlərə toplardan istifadənin sirlərini öyrədir, onlara lazımi təlimatlar verir, təhlükəsizlik qaydalarını izah edirlər. Döyüşlərdə topçularımız öz bacarıq və peşəkarlıqlarını nümayiş etdirməyə tam qadirdirlər.

Baş çavuş A.Ələsgərov şəxsi heyətin həyata keçirdiyi işlərin ardıcıllığı barədə danışdı: "Öncə qəbul olunan məlumatların qeydiyyatı aparılır və lazım olan punktlar kağıza köçürülür. Növbəti mərhələdə hədəflərin hansı tərəfdə olmasını bilmək üçün direksiya bucaqları hesablanır. Əldə olunan məlumatlar top komandirinə ötürülür. Top komandiri, öz növbəsində, həmin məlumatları tuşlayıcıya istiqamətləndirir. Alınan koordinatlar nişangaha qoyulduqdan sonra topun lüləsi nəzərdə tutulan tuşlama nöqtəsinə istiqamətləndirilir. Şəxsi heyətin tapşırığı yerinə yetirməyə hazır olması haqqında məlumat verildikdən sonra onun sona çatdırılması üçün "Atəş" komandası gözlənilir. Atəşin həyata keçirilməsi ilə tapşırıq sona çatmış hesab olunur".

Əsgər İsrafil Mədətov bildirdi ki, bizim əsas vəzifəmiz hərbi əməliyyatların aparılması zamanı düşmənin açıq və qapalı yerlərdə olan canlı qüvvəsini, piyada hissələrinin atəş vasitələrini, istehkamlarını məhv etmək, minalanmış ərazilərdə və tikanlı sədlərdə yol açmaq, düşmənin motomexaniki vasitələri və tankları ilə mübarizə aparmaqdır. "Piyada qüvvələrinə yardım etmək üçün düşmənin vacib hədəflərini sıradan çıxarmalıyıq. Komandirlərimiz kam qurğularını məhv edə bilər. Bizim əsas vəzifəmiz hərbi əməliyyatların aparılması zamanı piyadaları atəş dəstəyi ilə təmin etməkdir. Piyadalara yardım etmək üçün onların bizə verdiyi hədəfləri sıradan çıxarmalıyıq. Bu hərbi texnika ilə necə davranmağın sirlərini yaxından öyrənirik. Komandirlərimiz mütəmadi olaraq məşğələlər keçərək, döyüş qabiliyyətimizi artırırlar. Döyüş meydanında düşmən üzərində qalib gələcəyimiz günü həsrətlə gözləyirik. O gün qisasımızı alacaq, torpaqlarımızı işğaldan azad edəcək, dədə-baba yurdlarından didərgin düşən soydaşlarımızı yenidən doğma evlərinə qaytaracağıq".

Əsgər Elgün Əzimov digər əsgər yoldaşları kimi topun taktiki-texniki xüsusiyyətlərini yüksək səviyyədə mənimsəyib. "Torpaqlarımızı hərb yolu ilə işğaldan azad etmək lazım gələrsə, hər an buna yüksək səviyyədə hazır olmalıyıq. Ona görə də biz bütün silahların, xüsusən də topun taktiki-texniki xüsusiyyətlərini dərindən öyrənməliyik. Bu işdə dəqiqlik xüsusi əhəmiyyət daşıyır. Silah dəqiqliyə əməl etməklə dərinlikdə yerləşən düşmənin artilleriyasını, canlı qüvvəsini, istehbizlərə artilleriyanın sirlərini öyrədir, döyüş qabiliyyətimizi və qələbə əzmimizi artırırlar. Arzu edirəm ki, ordu sıralarından tərxis olmadan öncə Ali Baş Komandanımızın əmri ilə döyüş qabiliyyətimizi düşmən üzərində göstərək. Qisasımızı almaq üçün "Atəş" komandasını gözləyirik!"

Əsgərlər Məhəmmədəli Babazadə, Zeynal Məmmədov, İlkin Mirzəquliyev və digərləri Müdafiə Nazirliyinin rəhbər heyətinin onlara göstərdiyi diqqət və qayğıdan, komandirlərinin rəhbərliyi altında döyüş hazırlıqlarını artırmaqlarından, topun taktiki-texniki xüsusiyyətlərini öyrəndiklərindən söhbət etdilər. Onların hər biri döyüş əmrilə düşməndən qisas alacaqları günün həsrəti ilə xidmət etdiklərini bildirdilər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## HHM bölmələrinin məşqləri başlayıb

Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına əsasən, ümumqoşun poliqonunda Hava hücumundan müdafiə (HHM) bölmələrinin məşqləri keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşqlərin keçirilməsində əsas məqsəd bölmələrin şəxsi heyətinin zenit-raket komplekslərinin (ZRK) idarə edilməsi vərdişlərinin təkmilləşdirilməsidir.

Məşqlərdə döyüş heyətləri "İldırım" ZRK-nin start mövqeyinə çıxarılması və döyüş tətbiqinə hazırlanması üzrə normativləri icra edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***5 may 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqedzor kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun işğal altında olan Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Mayın 2-dək Silahlı Qüvvələrin Yardım Fonduna daxil olan vəsait

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrin Yardım Fonduna cari il mayın 2-dək 110.073.896,49 AZN, 213.577,88 ABŞ dolları, 17.566,0 avro və 5000,0 rubl vəsait daxil olub.

# Operativ Qərargah:
# Ölkə ərazisində xüsusi karantin rejimi mayın 31-dək uzadıldı

Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək xüsusi karantin rejiminin müddəti 31 may 2020-ci il saat 00:00-dək uzadılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, eyni zamanda, əhali arasında virusa yoluxma sürəti, xəstələrin sağalma dinamikası nəzərə alınaraq, tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılmasına dair qərar verilib.

Məhdudiyyətlərin yumşaldılması mövcud sanitar-epidemioloji vəziyyət, xəstə sayı və yoluxma sürəti əsas götürülərək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri, Abşeron rayonu və digər regionlar üzrə mərhələ ilə həyata keçirilir.

AZƏRBAYCAN ORDUSU




## Ümummilli lider Heydər Əliyev:

*Müharibə illərində hər beş təyyarə, tank, avtomaşından dördü Bakı benzini ilə işləyirdi.*

*Qələbə - 75*

# Bakı nefti - Qələbənin təminatı



Müharibə həm mübarizələr meydanı, həm də xalqın mənəvi qüvvəsinin hərtərəfli sınağıdır. Onun gedişi və nəticəsi isə əhalinin ordu ilə birlikdə gərginliyə, çətinliklərə, məhrumiyyətlərə davamlılığı, dözümlülüyü və qələbəyə inamın saxlanılması ilə müəyyənləşib. Gözünü ölüm, qan, ən böyük məhrumiyyətlər qorxutmayan, yorulsa da, taqətdən düşsə də, son nəfəsinədək yenə qələbə uğrunda döyüşən, hərbi mundiri barıt qoxulu sonuncu əsgərin çoxdan gözlədiyi 9 May Qələbə Günündən 75 il ötməkdədir. Bu Böyük Qələbə tək bir ölkənin yox, bütün bəşəriyyətin qəsdinə dayanaraq, 54 milyon insanın məhvinə, 90 milyondan çoxunun əlil olmasına, onlardan qat-qat artıq talelərin şikəst edilməsinə səbəb olan faşizm üzərində bütün tərəqqipərvər dünyanın qələbəsidir.

Hər il ildönümünü təntənə ilə qeyd etdiyimiz faşizm üzərində qələbə tarixi əhəmiyyətə malik olub, bəşəriyyətin müharibədən sonrakı inkişafına - dünyada sülhün, əmin-amanlığın bərqərar olmasına öz böyük təsirini göstərib. Həmçinin insanlarda mübarizlik ruhunun daha da möhkəmlənməsində böyük rol oynayıb. O qanlı savaşda məmləkətimizin yüz minlərlə oğul və qızı silaha sarılaraq Azərbaycan naminə, Bakının, Bakı neftinin hitlerçilərin əlinə keçməməsi naminə özlərini odun, alovun içərisinə - döyüş meydanlarına atıb. Xalqımız həm ön cəbhədə, həm də arxa cəbhədə gecə-gündüz çalışıb, misilsiz fədakarlıq nümunələri göstərərək qələbənin əldə olunmasına böyük töhfələrini verib. Ulu öndər Heydər Əliyevin söylədiyi kimi, müharibə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan qəhrəman xalqdır.

Dünya hərb tarixinə ən dağıdıcı və dəhşətli müharibə kimi daxil olan İkinci Dünya müharibəsində faşist Almaniyası Sovet İttifaqı üzərinə misli görünməmiş ordu qüvvəsi ilə hücum etdi. O zaman faşist ordusu 5 milyon 500 min canlı qüvvə, 4 min 300 tank, 24 min 980 hərbi təyyarə, 190 döyüş gəmisi, 44 min 200 artilleriya qurğusu ilə genişmiqyaslı əməliyyat planı həyata keçirməyi qarşısına məqsəd qoymuşdu. Xüsusilə qeyd olunmalıdır ki, faşist ordusunun silah cəbbəxanası həmin dövrün ən modern, təkmil bazası hesab olunurdu. İkinci cahan savaşının tərkib hissəsi hesab edilən Böyük Vətən müharibəsi başlayarkən Sovet İttifaqının ordu quruculuğu və müdafiə sistemi tamamilə zəif idi. Bu o dövr idi ki, qanlı repressiya dalğaları yenicə ara vermişdi. On minlərlə ziyalı, hərbçi, dünya və vətəndaş müharibələrinin təcrübəsini qazanmış zabit qırmızı terrorun qurbanına çevrilərək, antisovet damğası ilə məhv edilmişdi. Təcrübəli ordu rəhbərlərinin olmaması özünü o zaman göstərdi ki, müharibənin ilk üç ayında almanlar Moskva ətrafına qədər gəlib çıxa bildilər. Müharibənin 1 il 6 ayı ərzində Sovetlər İttifaqı 11 milyon canlı qüvvə itirdi. Bütün bunlar isə o demək idi ki, sovet ordusu müharibənin gedişində yenidən formalaşdı. Faşizm üzərində qələbə müharibədə iştirak edən bütün xalqların birgə səyinin, əzmkarlığının və fədakarlığının nəticəsi idi.

1418 gün davam etmiş Böyük Vətən müharibəsinin ilk günlərindən 40 min soydaşımız ordu sıralarına səfərbər edilərək düşmənlə mübarizə səngərlərinə yollandı. Ümumilikdə, 700 minə yaxın həmvətənimiz faşistlərə qarşı ölüm-dirim savaşlarında iştirak etdi. Onlardan 300 min nəfərdən çoxu odlu cəbhələrdə həlak oldu. Xalqımızın qəhrəmanlıq tarixinə yeni, şanlı səhifələr yazan soydaşlarımızın döyüş rəşadəti yüksək qiymətləndirilərək orden və medallara, ali mükafatlara layiq görüldü.

Xalqımızın qələbəyə töhfəsi təkcə ön cəbhə ilə məhdudlaşmırdı. Müharibənin başlandığı ilk gündən Bakı neftçiləri əzmkarlıq göstərərək gecə-gündüz çalışaraq, cəbhənin və iqtisadiyyatın bütün sahələrini yanacaqla təmin edirdilər. Təkcə bir faktı xüsusi olaraq qeyd etmək yerinə düşər ki, dənizdə, quruda və havada sovet ordusunun üstünlük qazanması və tarixi əhəmiyyətli strateji əməliyyatları məhz Bakı neftçilərinin əvəzsiz xidmətləri sayəsində mümkün olub. Müharibə illərində Azərbaycan alimləri tərəfindən yüksək oktanlı aviasiya yanacağının kəşf olunması amili də xalqımızın qələbəyə verdiyi əvəzsiz töhfələrindən biridir. Sovet aviasiyası məhz bu yanacağın hazırlanmasından sonra cəbhədə düşmənə ağır zərbələr endirməyə müvəffəq oldu. Ona görə də faşizm üzərində qələbənin qazanılmasında böyük əməyi olan xalqımızın qəhrəman övladlarının, alimlərinin və Bakı neftinin oynadığı rolu hər kəsin bilməsi zəruridir. Bakı qəhrəman şəhərlər Moskva, Leninqrad (indiki Sankt-Peterburq), Sevastopol, Brest, Kiyev və digərləri ilə eyni sırada dayanır. İnanırıq ki, tarixi ədalət bərpa olunaraq paytaxt Bakımıza da qəhrəman şəhər adı veriləcək və bu da rəsmi təsdiqini tapacaq.

Bütün bunlar xalqımızın qəhrəmanlıq ənənələrinin davamıdır. Ön cəbhədə, arxa cəbhədə ata-babalarımızın göstərdikləri hünər, igidlik nümunələri gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi üçün əhəmiyyətli olmaqla yanaşı, həm də onların döyüş ruhunun formalaşmasında, qələbəyə doğru addımlarının mətin olması yolunda böyük önəm daşıyır.

**"Azərbaycan Ordusu"**

# Övladlarının qürur yeri

Məşhur fransız yazıçısı Onore de-Balzakın belə bir kəlamı var: "Həyat beşiklə tabut arasında sınaq müddətidir". Bu müddəti ləyaqətlə yaşayıb igidliklə, haqq uğrunda savaş meydanında başa vurmaq, şəhidlik zirvəsinə ucalmaq hər kəsə nəsib olmur.

Ömür boyu qürur yerim olan, üzünü görmək, tanımaq qismətim olmasa da, adının onu tanıyanlar tərəfindən hörmətlə anıldığına şahid olduğum babam - Əsədov Əli Xudaverdi oğlu da həyat deyilən bu sınaq müddətini ləyaqətlə yaşayıb, İkinci Dünya müharibəsinin döyüş meydanında qəhrəmancasına həlak olub.

Əli Əsədov 1903-cü ildə Biləsuvar rayonunun Amankənd kəndində anadan olub. Əli ilk təhsilini mollaxanada alıb. Yeddi illik təhsilini başa vurduqdan sonra Zaqafqaziya Kommunist Universitetinin və Moskva Partiya Kadrları İnstitunun qiyabi şöbələrini bitirib. 1940-cı ildə isə Azərbaycan Dövlət Pedaqoji İnstitunun (indiki N.Tusi adına Dövlət Pedaqoji Universiteti) tarix fakültəsini əla qiymətlərlə başa vurub və tarix müəllimi ixtisasına yiyələnib.

1925-ci ilə qədər yaşadığı rayonda kənd təsərrüfatı sahəsində işləyən Əli sonralar müxtəlif dövlət və partiya işlərində çalışır. 1938-ci ildə Əli Əsədovu Müəllimləri Təkmilləşdirmə İnstituna direktor müavini vəzifəsinə təyin edirlər. 1941-ci ilin avqustuna kimi - cəbhəyə yola düşənədək - o, yerli müəllim kadrların yetişdirilməsində mühüm rol oynayır, misilsiz xidmətlər göstərir.

1941-ci ildə faşist Almaniyasının SSRİ ilə müharibəyə başlaması hamı kimi Əli Əsədovun da həyatını dəyişir. Ölkə üçün bir ağır zamanda o, kənarda qala bilmədiyini nəzərə alaraq cəbhəyə yola düşmək məqsədilə müraciət edir. Tutduğu məsul vəzifə ilə bağlı ona bron verilir. Cavanlıqda at çaparkən əlindən aldığı zədə üzündən Əli cəbhəyə göndərilmək əvəzinə ilk olaraq Azərbaycanın Quba şəhərinə göndərilir və babam ailəsi ilə birlikdə ora köçür.



Nəhayət, dəfələrlə təkidlə müraciətdən sonra Əli Əsədov orduya çağırılır və 1942-ci il avqustun 1-dən Qafqaz uğrunda döyüşlərdə iştirak edir. Döyüşlərdə göstərdiyi igidliyə görə həmin ilin dekabr ayında onun təltif olunması üçün Şimali Qafqaz cəbhəsinin 223-cü atıcı diviziyasının 587-ci əlahiddə istehkamçı batalyonun komandiri təqdimat verir. Təqdimatda göstərilir ki, baş leytenant Əli Əsədov iki dəfə kəşfiyyata gedərkən ərazidə düşmənin mina sahəsi olduğunu müəyyən edir. Sovet tanklarının bu sahədən itkisiz keçməsi üçün lazimi tədbirlər görür. Bu qəhrəmanlığa görə o 1943-cü ilin fevralında " İgidliyə görə" medalı ilə təltif edilir.

1943-cü ildə Əli hərbi-siyasi təhsilini artırmaq üçün Sverdlovsk şəhərinə göndərilir. Hərbi məktəbi bitirdikdən sonra kapitan rütbəsi alır. Artıq 1943-cü ilin iyulunda o, 14-cü Novqorod-Şimal Mühəndis-istehkamçı briqadasının 169-cu mühəndis-istehkamçı batalyonunun zabiti kimi xidməti davam etdirir. Buradakı xidmətinə görə 1943-cü ilin oktyabrında 2-ci dərəcəli "Vətən Müharibəsi" ordeni ilə təltif edilir. Təltif üçün təqdimat vərəqində bildirilir ki, kapitan Ə.Əsədov batalyonda partiya işini yüksək səviyyədə təşkil etməklə yanaşı, düşmənlə döyüşlərdə fəal iştirak edir, əsgərləri döyüşə ruhlandırır.

1944-cü ilin yayında Əli Əsədov 2-ci Belorusiya cəbhəsində 307-ci atıcı diviziyasının 1019-cu atıcı polkunda batalyon komandirinin siyasi məsələlər üzrə müavini kimi xidmətini yerinə yetirir.

1944-cü ilin 18 avqustunda polk komandiri podpolkovnik Şulqin Ə.Əsədovun təltif olunması üçün təqdimat yazır. Təqdimatı oxuduqca Əli Əsədovun nə qədər qorxmaz, cəsarətli olması, insanları arxasınca hücuma aparmaq bacarığı həm təəccüb, həm də qürur hissi yaradır. Təqdimatda deyilir ki, Ə.Əsədov döyüş zamanı rota komandirlərinə praktik kömək göstərir, həmçinin igidliyi ilə döyüşçülərə nümunə olur. 1944-cü ilin 24 iyulundakı döyüşdə düşmənin əks-hücumunun qarşısı alınarkən siyasi rəhbər olmasına baxmayaraq, 4-cü atıcı rotaya başçılıq edərək cinah atəşi ilə faşist halqasını yarır, düşmənin üç pulemyot nöqtəsini susdurur, 20 əsgərini məhv edir.

Həmin ilin 30 iyulunda Polşanın Ştabin adlı ərazisində yuxarıda göstərilən rota ilə düşmən arxasına keçir və düşmənə gözlənilməz zərbə endirir. Nəticədə düşmənin dörd pulemyot nöqtəsi susdurulur, 30-dək əsgəri məhv edilir, 33 əsgəri isə əsir götürülür.

1944-cü il avqustun 5-də düşmən çox böyük piyada qüvvə ilə Avqust kanalının qərb sahilində, Belostok vilayətinin Pekutovo kəndi ərazisində hücuma keçir. 1-ci və 2-ci atıcı batalyonların qərargahı düşmənin mühasirəsinə düşür. Faşistlər qərargaha can atırlar. Məqsəd isə polk komandirini, 1 və 2-ci atıcı batalyonların komandirlərini əsir götürmək olur. Bu zaman Ə.Əsədov avtomat silahla düşmənin 10 əsgərini məhv edir, digərləri isə döyüş meydanından qaçırlar. Nəticədə Əsədov qərargahdakı zabitlərin mühasirədən çıxmasını təmin edir. Bu döyüşlərdə göstərdiyi şücaətə görə 2-ci Belorusiya cəbhəsinin 50-ci ordu qoşunları üzrə komandanının 17 sentyabr 1944-cü il 0460 nömrəli əmri ilə kapitan Əli Əsədov "Qırmızı Bayraq" ordeni ilə təltif edilir.

1945-ci ilin yanvar və fevralında göstərdiyi igidliyə görə 3-cü Belorusiya cəbhəsinin 50-ci ordu qoşunları üzrə komandanının 012H nömrəli 24 fevral 1945-ci il tarixli əmri ilə Suvorov ordeni 307-ci atıcı diviziyasının 1019-cu atıcı polkunun batalyon komandirinin siyasi məsələlər üzrə müavini kapitan Əli Əsədov 1-ci dərəcəli "Vətən Müharibəsi" ordeni ilə təltif edilir. Lakin babam Əli Əsədova sonuncu ordenini - 1-ci dərəcəli "Vətən Müharibəsi" ordenini almaq qismət olmur. Çünki ailəsinin aldığı bildirişdə də yazıldığı kimi, Əli Əsədov 1945-ci il fevralın 16-da Vətən uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olur və hərbi ehtiram göstərilməklə Könqsberq dairəsinin Livental kəndində dəfn edilir.

Fəxredici məqam ondan ibarətdir ki, şərəfli ömür yolu keçən babamın yolunu davam etdirən xələfləri bu gün də Azərbaycan Ordusunun sıralarında xidmət etməklə ona layiq olduqlarını sübut edirlər.

Əli Əsədovun övladları və nəvələri həmişə onunla fəxr edir, həyatda ona layiq olmağa çalışırlar.

**Məlahət ƏSƏDOVA**

# Hərbçi alim tanınmış akademiyanın həqiqi üzvü seçilib



*Silahlı Qüvvələrin Hərbi Akademiyasının adyunktura və elm şöbəsinin professoru, "Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri, ehtiyatda olan 1-ci dərəcəli kapitan, tarix elmləri doktoru Nurulla Əliyev Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Rəyasət Heyətinin iclasında akademiyanın həqiqi (akademik) üzvü seçilib və onun fəxri üzvü statusu ilə təltif olunub. Alim, həmçinin türk dünyası hərb tarixi elminə verdiyi böyük töhfələrə və yüksək ixtisaslı zabit kadrların hazırlanması sahəsindəki xidmətlərinə görə akademiyanın "Beynəlxalq qızıl ulduz" medalına layiq görülüb.*


TÜRK DÜNYASI ARAŞTIRMALARI
ULUSLARARASI İLİMLER AKADEMİSİ
AKADEMİK
ÜYE DİPLOMASI
TÜRK DÜNYASI ARAŞTIRMALARI
ULUSLARARASI İLİMLER AKADEMİSİ
BİLİMSEL GENEL KURUL ÜYELERİ KARARIYLA
Sn. Prof. Dr. NURULLA ARİF oğlu ALİYEV
(Azerbaycan)
TÜRK DÜNYASI ARAŞTIRMALARI
ULUSLARARASI İLİMLER AKADEMİSİNİN
AKADEMİK ÜYESİ SEÇİLMİŞTİR.
Başkan: Prof. Dr. HASAN AHMET
Genel Sekreter: Prof. Dr. Tuncay PALTA
15 Mart 2020 A/Ü - 127
Ankara/TÜRKİYE



Qeyd edək ki, akademiyanın medalına türk dünyasının çox məşhur simaları - Süleyman Dəmirəl, Rauf Denktaş, Çingiz Aytmatov, İhsan Doğramacı və başqaları layiq görülüblər. Azərbaycandan akademiyanın həqiqi üzvlüyünə görkəmli alimlərimiz akademik Ramiz Mehdiyev, akademik Arif Paşayev, akademik Cəmil Əliyev, akademik Xoşbəxt Yusifzadə, akademik Yaqub Mahmudov, akademik Nailə Vəlixanlı və başqaları seçiliblər. Ehtiyatda olan birinci dərəcəli kapitan Nurulla Əliyev isə Azərbaycanda bu ada layiq görülənlər sırasında ilk hərbçi alimdir.

Nurulla Əliyev 1992-1995-ci illərdə Müdafiə Nazirliyinin mərkəzi aparatında, 1995-ci ildə isə döyüş bölgəsində xidmət edib. 1997-2010-cu illərdə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin rəisi olub, 2010-2015-ci illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Çin Xalq Respublikasındakı hərbi attaşesi vəzifəsində çalışıb. O, Qarabağ döyüşlərinin iştirakçısı, Azərbaycanda ordu quruculuğu və zabit kadrların hazırlığı işinə kifayət qədər töhfə verən, bu sahədə böyük səylə çalışan, ölkəmizin hərb və hərbi dənizçilik tarixi elminin təməlində dayanan yorulmaz tədqiqatçısı kimi uğurlar qazanaraq, Azərbaycanın görkəmli simaları sırasına daxil olub. "Böyük Dərbənd Ensiklopediyası"nın tərtibçisi, 8 monoqrafiyanın, 43 kitab və dərs vəsaitinin, 11 tədris proqramı və metodik vəsaitlərin, o cümlədən respublikada və xaricdə çap olunan 162 elmi məqalənin müəllifidir.

Professor N.Əliyev ilk dəfə tarixşünaslığımızda qədim zamanlardan XXI əsrin əvvəlinədək Azərbaycanın hərbi dənizçilik tarixinin tədqiqatını aparıb. O, hərb tarixi elminin inkişafına dəyərli töhfələr vermiş alimlərdəndir. Onun "Azərbaycanda hərbi dənizçilik işi (X-XV əsrlər)", "BAHDM-in yaranmasının tarixi aspektləri", "Xəzər bölgəsində geosiyasi rəqabət və Azərbaycan", "Şirvanşahların Hərbi-Dəniz Donanması", "Azərbaycanın hərb tarixi" "Ən qədim zamanlardan Birinci Dünya müharibəsinədək mühüm hərbi-siyasi hadisələrin xronoloji xülasəsi", ikicildlik "Azərbaycanın hərbi dənizçilik tarixi", iki hissədən ibarət "Azərbaycanın hərb tarixi. Ən qədim zamanlardan XVI əsrə qədər", "Böyük Dərbənd Ensiklopediyası", "Dərbənd: tarixi oçerklər" və digər kitabları elmi və hərbi ictimaiyyətə təqdim edilib.

2015-ci ildə Azərbaycan Ordusundan ehtiyata buraxılandan sonra professor fəaliyyətini ictimai işlərlə də davam etdirir. 2016-cı ildə Azərbaycan Respublikası "Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri seçilib və hazırda həmin vəzifədə çalışır. Müharibə və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin veteranıdır. Bundan sonra da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının adyunktura və elm şöbəsinin professoru Nurulla Əliyevə yorulmaz hərbi elmi və pedaqoji fəaliyyətində böyük nailiyyətlər, gələcək işlərində uğurlar arzulayırıq.

**"Azərbaycan Ordusu"**

# Hərbi qulluqçular növbəti dəfə ünvanlı yardım çatdırıblar

Son vaxtlar dünyada yeni növ koronavirus infeksiyasının coğrafiyasının genişlənməsi ölkəmizdə də bu xəstəliyə yoluxma hallarının qarşısının alınması məqsədilə müvafiq preventiv və profilaktik tədbirlərin gücləndirilməsini zəruri edir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev respublikamızda koronavirusa qarşı mübarizə tədbirlərinə başlanıldığı ilk gündən ölkə vətəndaşlarının sağlamlığının qorunmasını, pandemiyaya qarşı mübarizənin gücləndirilməsini bir nömrəli vəzifə kimi qarşıya qoyub, bütün dövlət qurumlarına əsas diqqəti bu sahəyə yönəltməyi tapşırıb.



Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabineti yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət operativ qərargah yaradılıb. Nazirlər Kabinetinin Sərəncamı ilə 2020-ci il yanvarın 30-da "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" təsdiq edilib və nəzərdə tutulmuş tədbirlər həyata keçirilməkdədir.

Dünyada yayılmış koronavirus (COVID-19) infeksiyasının ölkədə yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə xüsusi karantin rejimi elan edilib. Karantin rejimi müddətində koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində Azərbaycan Ordusunda da sistemli tədbirlər həyata keçirilir. Hərbi qulluqçuların sağlamlığının qorunub saxlanılması məqsədilə yoluxucu xəstəliklərə qarşı profilaktik və əks-epidemik tədbirlər görülür. Tapşırığa əsasən, hərbi hissələrə normadan əlavə dərman preparatları, profilaktiki və dezinfeksiyaedici vasitələr, o cümlədən qoruyucu maskalar çatdırılır.

Ölkə və Müdafiə Nazirliyi rəhbərliyi tərəfindən torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə hər zaman diqqət və qayğı göstərilir, onların mövcud problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar ölkədə tətbiq olunan xüsusi karantin rejimini nəzərə alaraq Müdafiə nazirinin göstərişinə əsasən, Müdafiə Nazirliyinin Mərkəzi Ərzaq Anbarında qablaşdırılan zəruri ərzaq məhsulları şəhidlərimizin ailələrinə, müharibə veteranlarına və əlillərə təqdim olunur.

Hərbi qulluqçuların ailələrinə növbəti dəfə ünvanlı yardımın çatdırılmasında iştirak etdik. Ünvanlı yardım alan şəhid ailəsi Sevda Cabbarova, Xəyalə Məmmədova, Nəzakət Həsənova, Qarabağ müharibəsi əlili Qurbanəli Bayramov, müharibə veteranı Əsəd Əliyev və digərləri şəhid ailələrinə, əlillərə, veteranlara dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışdılar. "Şəhid ailələrinə həmişə qayğı göstərilir. Xüsusi karantin günlərində də bizi yaddan çıxarmadıqları üçün dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova təşəkkürümüzü bildiririk. Bu amil bir daha sübut edir ki, dövlətimiz hər bir vətəndaşının qayğısına qalır, müstəqil Azərbaycan dövlətində vətəndaş amili hər zaman yüksəkdə dayanır və bundan sonra da dayanacaqdır. Bir daha əmin olduq ki, biz şəhid ailələrinin, müharibə veteranlarının və əlillərinin arxasında dayanan, daim bizə dayaq olan dövlətimiz, ölkə başçımız var. Belə bir diqqət və qayğının qarşılığında biz də üzərimizə düşəni etməliyik. Dövlətimizin qoyduğu tələbləri yerinə yetirərək evdə qalmaq, özümüzün və yaxınlarımızın sağlamlığını qorumaq hər birimizin vətəndaşlıq borcudur".

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nizamnamədənkənar münasibətlər zəminində, eləcə də fiziki və mənəvi təzyiqlər səbəbindən növbəti intihar hadisəsi qeydə alınıb.

İşğalçı ordunun 18-ci motoatıcı diviziyasının 1-ci motoatıcı alayında xidmət edən hərbi qulluqçular arasında dava düşüb. Nəticədə bir neçə xidmət yoldaşı tərəfindən döyülən və təhqirlərə məruz qalan əsgər özünü asaraq intihar edib. Faktla bağlı hərbi hissənin G.Varo adlı zabiti komandanlığa məruzə edib.

Komandanlıq faktı ört-basdır etmək üçün dəridən-qabıqdan çıxır. İntihar edən hərbi qulluqçunun adı, soyadı ictimaiyyətdən gizlədilsə də, hadisə ilə bağlı araşdırma davam edir.

* * *

Ermənistan ordusunun işğal olunmuş Madagiz yaşayış məntəqəmizdə yerləşdirilən bölmələrindən birində xidmət edən hərbi qulluqçu Narek Arzaqantyan təcili olaraq Yerevana hərbi hospitala göndərilib.

Əvvəlcə hərbi hissə komandiri faktı gizlətmək məqsədilə əsgəri infeksion xəstəlik və pnevmoniya diaqnozu ilə hərbi hissənin tibb məntəqəsinə yerləşdirib. Hətta komandanlıq hadisəni ört-basdır etmək üçün koronavirus infeksiyasını bəhanə gətirərək əsgəri karantinə yerləşdirməyə cəhd göstərib.

Lakin sonradan əsgərin vəziyyəti ağırlaşdığından onu hərbi hospitala müayinəyə göndərməyə məcbur olublar.

Hospitalda təkrar müayinə zamanı əsgərin başından aldığı zərbələr nəticəsində gözlərinin tutulduğu müəyyən edilib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən düşmən silahlı qüvvələrinin bölmələrində Ermənistanda cinayət törədən hərbi qulluqçuların sayı günbəgün çoxalır.

Ermənistanın müxtəlif bölgələrində cinayət törədən hərbi qulluqçular məsuliyyətdən yayınmaq məqsədilə külli miqdarda rüşvət verərək Dağlıq Qarabağdakı hərbi hissələrə "perevod" olunurlar.

Cinayət axtarış idarəsinin baş zabiti müstəntiq D.Armendən hərbi hissəyə daxil olan müraciətdə yazılıb ki, Ermənistanın Gümrü bölgəsində cinayət törədən kapitan Aleksandr Yüzbaşyan külli miqdarda pul verərək xidmət yerini işğal olunmuş yaşayış məntəqəmizdə yerləşən bölmələrdən birinə dəyişməyə nail olub.

Müraciətə cavab hazırlayan zabit Əziz Stepanyanın yazdığına görə, kapitan A.Yüzbaşyan artıq martın 12-dən yeni hərbi hissədə xidmətə başlayıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən hərbçilər arasında, hətta zabitlərin xidmət yerindən qaçması artıq adi hala çevrilib. Vəziyyət o həddə çatıb ki, hərbi hissə komandirləri 2-3 günlüyə qaçıb gedən və tapılıb geri gətirilən hərbi qulluqçular barədə yuxarı komandanlığa məlumat belə vermirlər. Bu günlərdə eyni gündə 3 zabitin xidmət yerini özbaşına tərk etməsi barədə xəbər yayılıb.

7-ci dağ atıcı alayın zabitləri - Hovanes Danielyan, Mexak Garibyan və Hayk Melkonyan eyni gündə fərarilik ediblər.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Ümummilli lider Heydər Əliyev:

*Mən Ənvər Əlibəylini çox böyük hörmətlə xatırlayıram. O, həm yaxşı jurnalist, həm yaxşı şair idi. Həm də televiziyaya yaxşı rəhbərlik edirdi.*

*Qələbə - 75*

# Tarixin poeziyası, poeziyanın tarixi

Şair Ənvər Əlibəylini bir vaxtlar Azərbaycan Radio və Televiziya verilişləri komitəsində işləyənlər təbiətcə təvazökar, xasiyyətcə mülayim, prinsipial bir insan kimi xatırlayırlar. "Azərbaycanım" şeiri Səməd Vurğunun "Azərbaycan" şeirinin məntiqi davamı kimi oxunan şair Ənvər Əlibəyli Böyük Vətən müharibəsi başlayanda ordu sıralarına çağırılıb, Tbilisidəki hərbi məktəbi bitirdikdən sonra leytenant rütbəsi ilə döyüşən ordu sıralarına göndərilib.

Artilleriya batareyasının komandiri olan leytenant Ənvər Əlibəyli sonralar 416-cı Taqanroq diviziyasının tərkibində döyüşüb. 1944-cü ildə ağır yaralanıb, ordu sıralarından tərxis edilib. "İnqilab və mədəniyyət" qəzetində, "Təbliğatçı" jurnalında işləyən Ənvər Əlibəyli 1948-1952-ci illərdə "Ədəbiyyat" qəzetində redaktor, 1952-1968-ci illərdə Azərbaycan Radio və Televiziya verilişləri komitəsinin sədri vəzifələrində işləyib.

1944-cü ilin yazında döyüşən ordudan Azərbaycan Yazıçılar İttifaqına göndərilmiş məktub azərbaycanlı zabitin rəşadətinə, cəsarətinə verilən dəyərdir və bu məktubda xarakteri qürurla, iftixarla xatırladılan zabitin diviziyada şair kimi ehtiramla əhatələndiyi də şübhəsizdir. Belə olmasaydı, məktub Yazıçılar İttifaqına deyil, Hərbi Komissarlığa ünvanlanardı: "Böyük Vətən müharibəsi cəbhələrində rəşadət və fədakarlıq göstərən həqiqi Azərbaycan balası, sizin yetişdirməniz, gənc cəbhəçi şair Ənvər Əlibəyli haqqında sizə yazmağı və belə bir vətənpərvər şair tərbiyə etdiyinizə görə sizə təşəkkür etməyi borc bilirik. Baş leytenant Ənvər Əlibəyli bizim hissənin ən qabaqcıl, mübariz zabitlərindən biridir. Əlibəyli yoldaş azğın alman işğalçılarına qarşı döyüşlərdə igidlik və rəşadət göstərdiyinə görə "Qırmızı ulduz", "İkinci dərəcəli Vətən müharibəsi" ordenləri ilə təltif edilmişdir. Komandanlıq Ənvər Əlibəylinin simasında özünün ən bacarıqlı və döyüşkən zabitini tanıyır. Sizin qəhrəman şairinizlə fəxr etməyə haqqınız var".

Ənvər Əlibəyli belə zabit olub...

Akademik Bəkir Nəbiyev yazır: "Ənvər Əlibəylinin şeirləri hay-küydən, gurultudan uzaqdır. Bu xüsusiyyət onun müharibə şeirlərində də özünü büruzə verir".

**Mən bu şeiri topların əjdaha nəfəsindən,**
**Mərmilərin havanı yaran nəriltisindən,**
**Vətən yolunda gedən qızğın vuruşmalardan,**
**Ruhlanaraq yaratdım səngərdə yatan zaman, -**

deyən şair Ənvər Əlibəylinin döyüş yolu həm də onun yaradıcılıq yolunun bir hissəsidir. Özünəməxsusluğuyla seçilən bu yaradıcılığı ədəbi tənqid yüksək səmimiyyətlə dəyərləndirirdi: "Şair Ənvər Əlibəylinin müharibəyə, cəbhəyə aid şeirlərində gurultulu çağırışlara, nidalara rast gəlmirik. O, ifadə etmək istədiyi fikirləri və hissləri, döyüşçü üçün əziz olan bir məktub, bir şəkil, yaxud müəyyən bir hadisə ilə bağlayır, kiçik və sadə süjetlər qurur" (Ə.Cəmil).



1941-ci ildən 1944-cü ilə kimi döyüşən, döyüşlər səngiyəndə düşüncələrini, gördüklərini, müşahidə etdiyi hadisələri ədəbiyyata gətirən şairin Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədova ithaf etdiyi "İgid oğlan" şeiri sıradan bir döyüş epizodu kimi oxunmur, şeir bir qəhrəmanlığın tarixidir. Bu qəhrəmanlıq şair Ənvər Əlibəylinin təqdimatında qəhrəmanlığı müxtəlif şəkildə tarixləşən yüzlərlə Gərayların qəhrəmanlığının poetik obrazıdır.

Döyüş gedir. Düşmənin pulemyotu döyüşçülərimizin döyüşə-döyüşə irəliləməsinə imkan vermir. Döyüşçü (Gəray Əsədov) bir anlığa düşünür, "gen sinəsini torpağa söykəyir", sonra "pulemyota sarı sürünür". Az sonra "pulemyotun alov saçan lüləsi onun pəhləvan vücuduyla qapanır:"

**Düşmən susur…**
**Bizimkilər üzüktək,**
**Dövrə vurur, alır onu araya…**

Şeir təsvirlə tamamlanmır, şair bu döyüşü tarix yazan bir qəhrəmanlıq kimi, azərbaycanlı döyüşçünün şücaəti, milli xarakteri kimi təqdim edir. Belə qəhrəmanlıq sonralar müxtəlif cəbhələrdə, müxtəlif şəraitlərdə təkrar edilmişdi. Bu amil şeirin sonluğunda yaşarı bir kəlam kimi ümumiləşdirilib:

**Müqəddəsdir əzəl gündən deyiblər,**
**Vətən eşqi, el sevgisi, məhəbbət.**
**İgid oğlan, yaşadacaq səni də**
**Əsrlərlə bu şücaət, bu şöhrət.**

"Döyüşçünün ölümü" də Ənvər Əlibəylinin şeirlə yazılan və döyüş təəssüratları kimi oxunan, həm də müharibənin tarixi kimi diqqəti çəkən əsərlərindəndir. "Döyüşçünün ölümü"nü mahiyyəti təbiəti də heyrətləndirən bir qəhrəmanlıq haqqında elegiya da adlandırmaq mümkündür:

**Sən öləndə bahardı,**
**Çöllərdə, çəmənlərdə**
**Min cürə çiçək vardı.**
**Səni dəfn etdik səhər**
**Matəm bayrağı kimi**
**Əyilmişdi lalələr.**

Şeirdə "lalələrin matəm bayrağı kimi əyilməsi" dəfnin rəsmiliyini bildirməklə, ehtiramın səviyyəsinin də göstəricisidir. Mükəmməl, səmimi, təbii təsvir döyüşçülərin də, təbiətin də insan xarakterinə, bu anlamda qəhrəmanlığa ehtiramını ifadə edir. Belə ehtiramlara bəşəri ehtiram deyirik…

"Kimin qanıdır o qan?" şeiri bədii ümumiləşdirmə əsasında döyüşçü ağır yaralanıb, çox qan itirib. Vurulan qan onun həyatını xilas edir, yaşamının davamına dönür. Bunu özünə gələndə bilir. Onu da öyrənir ki, ona vurulan qan arxa cəbhədən göndərilib. Məni kimin qanı xilas edib? - soruşur. Bildirirlər ki, səni xilas edən burada yoxdur. Yaralı döyüşçünün təkidi müqabilində həkim qız ona üstünə donorun adı-soyadı, ünvanı yazılmış bir şüşə verir. Yaralı döyüşçü heyrətlənir:

**…Ürək quştək çırpınır**
**gördüyüm mənzərədən,**
**Öz anamın qanıdır mənə**
**həyat verən qan!..**

Kiçik həcmli əsərlərində də obrazlar yarada bilən şair Ənvər Əlibəyli Bəxtiyar Vahabzadənin "Dörd yüz on altı" poemasında döyüşçü kimi, şair kimi, şair-döyüşçü kim təqdim edilib:

**Yumşaq təbiətli bu həlim insan**
**Deyərdin, quşa da daş ata bilməz.**
**Ancaq…Top ardına keçdiyi zaman**
**O, yalnız əsgərdir, -**
**Ölər, yenilməz!**
**Döyüşdə əsgərdir,**
**Adicə əsgər,**
**Döyüş qurtardımı,**
**Şairdi Ənvər.**

"Mən ölmək istəyirəm səngərdə əsgər kimi" deyən (yəni, ölər olsam səngərdə əsgər kimi ölməliyəm! Bu qərar belə ölümün ömür kimi dəyərləndirilməsidi), "İgid oğlan", "Döyüşçünün ölümü", "Kimin qanıdır o qan?!" kimi düşündürücü şeirlər tarixin poeziyası, poeziyanın tarixi kimi oxunub, belə də oxunacaqdır...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə beşinci nəsil döyüş təyyarələri istehsal edəcək



Türkiyənin aviasiya istehsalı təyinatlı aparıcı şirkətləri beşinci nəsil döyüş təyyarələri tədarükünə başlamaq üçün bir araya gəlib.

Prezident Administrasiyası yanında Müdafiə Sənayesi Baş İdarəsinin "Milli döyüş təyyarəsi" layihəsi çərçivəsində 2023-cü ildə ilk qırıcı təyyarələrin istifadəyə verilməsi nəzərdə tutulub. Bu layihə ilə bağlı "Tusas" və "Havelsan" şirkətləri arasında əməkdaşlıq barədə razılıq əldə olunub. Beləliklə beşinci nəsil milli döyüş təyyarələrinin istehsalında ölkənin aviasiya istehsallı ilə məşğul olan aparıcı şirkətləri birgə fəaliyyət göstərəcək. Məlumata görə, "F-35" qırıcılarının istehsalında iştirak edən türkiyəli mühəndislər də bu layihəyə cəlb olunublar.

### Misir ordusu antiterror əməliyyatı zamanı 126 terrorçunu məhv edib



Misir ordusunun Mərkəzi və Şimali Sinay əyalətlərində həyata keçirdiyi 12 antiterror əməliyyatı zamanı 126 terrorçu öldürülüb.

Bu barədə Misir Silahlı Qüvvələrinin Baş Qərargahının sözçüsü Tamer Əl-Rəfai məlumat verib.

Məlumatda qeyd edilib ki, terrorçulara qarşı aparılan hərbi əməliyyat zamanı 15 hərbçi həlak olub və ya yaralanıb. Həlak olan hərbçilərin dəqiq sayı açıqlanmır. Ordunun Sinay yarımadasının mərkəz və şimal hissəsində antiterror əməliyyatı qərarı iki gün öncə bu ərazidə terrorçular tərəfindən törədilən və hərbçilərin həlak olmasına səbəb olan partlayışdan sonra verilib.

Silahlı Qüvvələrin məlumatında bildirilib ki, məhv edilən terrorçuların düşərgələrində çoxlu silah-sursat, 630 partlayıcı qurğu, 6 yeraltı tunel, 228 sığınacaq və 116 nəqliyyat vasitəsi aşkar edilib.

### Suriyada terror aktı törədilib



Suriyanın Afrin rayonu ərazisində böyük insan tələfatı ilə nəticələnən ağır terror aktı törədilib.

Türkiyə KİV-ləri xəbər verir ki, YPG-PKK terror təşkilatı tərəfindən törədilən terrorda ölənlərin sayı 35 nəfərə çatıb. Ən azı 30 mülki şəxsin yaralı olduğu bildirilir. Terror aktı bomba yüklənmiş yanacaqdaşıyan maşının partladılması nəticəsində baş verib.

**AZƏRTAC-ın materialları əsasında**

---

Baş leytenant Güləliyev Tural Elman oğluna 2019-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Namazov Arif Bəybala oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Əsgər Niftəliyev Samir Qara oğluna və əsgər Mustafayev Fərid Xəqani oğluna verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 247
Nüsxə 3960